# Vətən müharibəsi orta məktəbin hərbi vətənpərvərlik dərslərində tədris mövzusu kimi...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Bir il bundan əvvələ qədər bizi narahat edən ən ümdə məsələ torpaqlarımızın 20 faizdən artıq hissəsinin Ermənistanın terrorçu silahlı birləşmələrinin tapdağında olması idi. 30 ilə qədər davam edən işğal dövründə bütün təhsil-tərbiyə müəssislərinin üzərinə düşən əsas vəzifə uşaqları, məktəbliləri vətənpərvərlik ruhunda tərbiyə etmək, onlarda milli şüuru daha da inkişaf etdirmək olmuşdu.**

2020-ci ilin 27 sentyabr tarixində Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusu yağı düşmənin tapdağında olan ərazilərimizi 44 gün ərzində azad etdi. Milli tariximizə Vətən Müharibəsi kimi həkk olunan 44 günlük müharibədə Azərbaycanın qazandığı zəfər xalq olaraq bizi hər zaman qürurlandırır.

Vətən müharibəsinin zəfərlə bitməsindən bir il keçib və artıq zəfər tariximizi cümlə-cümlə, söz-söz şagirdlərə, gənclərə öyrətməliyik. Xüsusən də məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında 44 günlük Vətən müharibəsini əsas istinad yeri seçməliyik, çünki qürurumuz, başımız dikəlib həmin tarixdə, düşmənin dizini, belini qırmışıq o möhtəşəm günlərdə. Vətən müharibəsində hər ştrix, hər məqam, hər həmlə, hər yeni taktika bir mövzudur, bir hadisədir.

### Vətən müharibəsinin nəticələrindən vətənpərvərlik tərbiyəsinin formalaşdırılması işində necə istifadə olunur?

Azərbyacanın şanlı ordusunun 44 günlük Vətən Müharibəsi haqda yalnız biz deyil, bütün dünya danışır, Şuşanın işğaldan azad edilməsi hərbi taktikası dünyanın ayrı-ayrı ali hərbi məktəblərində öyrədilir.

Azərbaycan məktəblərində tədris edilən Çağırışaqədərki hazırlıq fənnin də bu sahədə xüsusi yeri olmalıdır ki, 44 günlük Vətən Müharibəsinin hər bir məqamını şagirdlərə tədris etsin və onlarda vətənpərvərlik hisslərini daha da möhkəmlətsin.

Vətən müharibəsində baş verən hadisələrdən, ayrı-ayrı mövzulardan, ideyalardan orta məktəblərimizdə hərbi vətənpərvərlik tərbiyəsi işində nə dərəcədə istifadə oluna bilir? Müharibədən sonra bu mövzular məktəblərdə hərbi-vətənpərvərlik tərbiyəsinin inkişafında, təşkilində öz əksini necə tapır? Müharibənin başa çatdığı bu bir ildə bu sahədə məktəblərdə təbliğati sahədə nə işlər görülür?

### "Şagirdlərin vətənpərvərlik tərbiyəsinin formalaşmasına mühüm təsir edir"

Tanınmış təhsil eksperti, tarixçi Kamran Əsədov "Bakı-Xəbər"ə bildirdi ki, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında Vətən Müharibəsinin nəticələrinin, şanlı zəfərimizin böyük rolu var. "İlk növbədə qeyd edim ki, Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi barədə bütün məlumatların rta ümumtəhsil məktəblərinin tədris resurslarına daxil edilməsi olduqca mühüm bir addımdır. Nəzərə alsaq ki, hazırda bizim 4435ortya ümumtəhsil məktəbində 1, 6 milyona yaxın şagird təhsil alır. Orta ümumtəhsil məktəblərinin də əsas funksiyası şəxsiyyət yetişdirməkdir. Biz birmənalı şəkildə orta ümumtəhsil məktəblərimizdə təhsil alan şəxslərin şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərəcək bilik və bacarıqların formalaşması üçün Zəfər tariximizi geniş şəkildə tədris etməliyik. Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi haqda məlumatları dəsrliklərə daxil etməyimiz, zəfər tariximizi təbliğ etməyimiz çox önəmlidir, vacibdir. Təhsil Nazirliyinin müvafiq qərarı ilə orta ümumtəhsil məktəblərində ayrıca "Zəfər tarixi" fənni tədris edilir. Zəfər tariximizlə bağlı ayrıca dərslik yazılıb. Bu olduqca mühüm haldır, bunu müsbət qiymətləndirirəm. Vətən müharibəsinin uğurlu nəticələri məktəblərdə geniş şəkildə təbliğ olunur. Bu şagirdlərin vətənpərvərlik tərbiyəsinin formalaşmasına mühüm təsir edir".



K.Əsədov qeyd etdi ki, 2020-ci ilə qədər bizim dərsliklərdə daha çox faciələrimiz, itkilərimiz, məğlubiyyətimiz əks olunurdu və torpaqlarımızın işğaldan azad ediləcəyinə ümidlər aşılanırdı, itirdiyimiz ərazilər haqda məlumatlar verilirdi. "Bizim şagirdlərimiz müəyyən qədər bədbin ruhda böyüyürdülər. Amma indi isə Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük tarixi qələbəyə, zəfərə imza atdı. Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqları azad edildi, pozulan hüquqları bərpa edildi. Biz şagirdlərə birmənalı şəkildə bunu aşılamalıyıq. Zəfər tariximizi təbliğ etməkdə məqsəd təkcə o deyil ki, biz tarixi torpaqlarımızı qaytardıq, biz eyni zamanda tarixi ədaləti bərpa etdik. Şagirdlərimizə tarixi ədaləti bərpa etdiyimizi, buna nail olmaq üçün hansı yollardan keçdiyimizi də tədris edirik".

### "Əsas hədəf şagirdlərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün..."

K.Əsədov hesab edir ki, biz Zəfər tariximizin təbliğatını davam etdirməliyik. O, deyir ki, zəfər tarixi fənni öz yerində, onunla yanaşı biz Vətən müharibəsinin hər bir məqamını, bizi qələbəyə aparan hər zəfərini geniş yaymalıyıq. "Biz işimizi zəfər tarixini keçməklə, Vətən müharibəsinin hər bir hadisəsini şagirdlərə aşılamaqla kifayətlənməməliyik, eyni zamanda təklif edirəm ki, ali təhsil məktəblərinə qəbul imtahanlarında bütün fənnlər üzrə 44 günlük Vətən müharibəmiz haqqında test sualları salmalıyıq. Həmçinin də Zəfər tarixi dərsliyini II və III ixtisas qrupları üçün ali məktəblərə qəbul imtahanlarında istifadəyə verməliyik, ədəbiyyat siyahısına daxil etməliyik ki, şagirdlər bunu daha dərindən öyrənsinlər. Etiraf edək ki, çox təəssüf bəzən bizim orta məktəblərdə təhsil alan şagirdlərimiz ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadə edilməyən dərslikləri o qədər də istifadə etmirlər. Düşünürəm ki, bütün şagirdlərin bizə zəfər bəşx eədn 44 günlük Vətən müharibəsini özündə əks etdirən dərslikləri oxumalıdır. Bu dərsliklərdə işğaldan azad edilən ərazilərimiz, onıarın uğurunda gedən döyüşlər, orada iştirak edən qəhrəmanlarımız haqqında geniş məlumatlar verilir. Zəfər tarixi xüsusən də bizim orta ümumtəhsil məktəblərinin rus bölmələrində tədris olunmalıdır, amma tədris Azərbaycan dilində aparılmalıdır. Eyni zamanda da ingilis və digər dillərdə tədris həyata keçirilən müəssisələrdə də bu fənn Azərbaycan dilində keçilməlidir. Bu mütləq şəkildə belə olmalıdır. Burada bir məqamı xüsusən qeyd etmək lazımdır ki, təkcə 9-cu sinif şagirdlərinə yox, orta məktəbin bütün siniflərinə pillələr üzrə bu çatdırılmalıdır. Bu dərslik də get-gedə təkmilləşəcək daha da mükəmməl olacaq, əlbəttə, orta məktəb dərslikləri hər zaman dəyişir və daha da təkmilləşdirilir. Bütövlükdə, Vətən müharibəsində baş verən hadisələrdən, ayrı-ayrı mövzulardan, ideyalardan orta məktəblərimizdə hərbi vətənpərvərlik tərbiyəsi işində geniş şəkildə istifadə olunur. Bu birmənalı olaraq şagirdlərin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir. Əsas hədəf şagirdlərin vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi üçün 44 günlük müharibəsinin hər detalını, hər məqamını uşaqlara çatdırmaqdır"-deyə K.Əsədov qeyd etdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**